24-cü Azərbaycan Beynəlxalq
Qida Sənayesi Sərgisi

Post-şou
22.05.2018

16-18 may ayının tarixlərində Bakıda 24-cü Azərbaycan Beynəlxalq Qida Sənayesi WorldFood Azerbaijan 2018 keçirildi. Keçirildiyi illər ərzində sərgi özünü mütəxəssislər arasında ənənəvi görüş yeri, habelə qida sənayesi üzrə avadanlıq, məhsul və xidmətlərin nümayiş olunduğu, eləcə də müştərilər tapmaq, biznes tərəfdaşları ilə mövcud əlaqələri möhkəmləndirmək və yeni satış bazarlarına çıxmaq üçün imkanların yaradıldığı etibarlı platforma kimi doğrultmağa müvəffəq olmuşdur. Uzun illərdir ki, Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi "WorldFood Azerbaijan" sərgisinə yaxından dəstək göstərir. Sərgi həmçinin Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu (AZPROMO) və Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası (ASK) tərəfindən də dəstəklənir. Sərginin təşkilatçıları qismində "Iteca Caspian" və "ITE Group" şirkətləri çıxış edirlər.

Sərginin mətbuat konfransı keçirildi və mətbuat konfransında Anar Hüseynov - Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin İnformasiya və İctimaiyyətlə əlaqələr şöbəsinin rəhbəri, Mansur Piriyev - Qida Təhlükəsizliyi Agentliyinin kommunikasiya və informasiya texnologiyaları şöbəsinin müdiri, Edvard Stron - "ITE Group" şirkətinin regional direktoru və Zarina Məmmədova -sərgi meneceri iştirak ediblər. Mətbuat konfransı zamanı KİV nümayəndələrinə sərgi ilə bağlı, həmçinin xarici iştirakçıların sərgidə hansı yenilikləri təqdim etdiyi və bu sahə ilə bağlı ölkə üçün yeniliklər haqqında ətraflı məlumat təqdim olunmuşdu. Mətbuat konfransında 30 KİV nümayəndələri iştirak etmişdi, onların arasında televiziya və xəbər portalları: AzTv, ARB, CBC, Iran TV, Lider, TREND, Azertag, APA, Report, Sputnik, Salamnews, 1news və s.

Sərginin birinci günü Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sərgini ziyarət edərək, həm yerli, həmdə xarici şirkətlərin yenilikləri ilə tanış olub.

Rəsmi açılış mərasimində Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Naziri İnam Kərimov, Qida Təhlükəsizliyi Agentliyinin sədri Qoşqar Təhməzli və "ITE Group" şirkətinin regional direktoru cənab Edvard Stron çıxış ediblər.

Cənab Kərimov dövlətimizin qeyri-neft sektorunun inkişafına xüsusi diqqətini vurğulayıb. "WorldFood Azerbaijan" sərgisi kimi tədbirlər uğurlarımızın nümayiş etdirilməsi, xarici tərəfdaşlarla əlaqələrin qurulması üçün etibarlı platformadır. Sərgilərin miqyası, iştirakçıların sayının artması ölkədə azad sahibkarlığın müsbət aspektlərini, beynəlxalq müqavilələrin bağlanması və birgə layihələrin inkişaf etdirilməsinin faydalarını göstərir.

Cənab Təhməzli isə öz çıxışında bu sərgilərin bütün iştirakçılar və sahibkarlar, eləcə də yerli və xarici bazar iştirakçıları üçün yeni imkanlar yaratmağa kömək etdiyinə əmin olduğunu ifadə edib.

Əlaqə: Şövkət Həsənova
Tel.: +994 12 404 10 50; Faks: +994 12 404 1001;
E-poçt: prassistant@iteca.az; Veb-sayt: www.worldfood.az

Ölkənin qida sənayesinin əsas tədbiri olan “WorldFood Azerbaijan” sərgisində dünyanın 20 ölkəsini təmsil edən 207 şirkət geniş məhsul seçimi təklif edib. Belarus, Latviya, Yunanıstan, Türkiyə, Şri Lanka və İtaliya milli stendlərlə, Altay Diyarı, Kabardino-Balkariya və Həştərxan diyarı (Rusiya) isə regional stendlərdə iştirak ediblər. Sərgidəki debütantların sayı tədbir iştirakçıların 35% -ni təşkil edib.

Sevindirici haldır ki, “Made in Azerbaijan” brendi ilə çıxış edən yerli şirkətlər sərgidə fəal təmsil olunub. Onların arasında «Amoris», «Astara Çay», «Azersun Holding», «Azmeat», «Azqranata», «Bal Xurma», «CAN-PA», «Gilan Holding», «Göy-Göl», «Özdad» və s. İlk dəfə olaraq sərgidə Qida Təhlükəsizliyi Agentliyi və “ABAD” (Ailə Biznesinə Asan Dəstək) mərkəzi iştirak edib. Qida Təhlükəsizliyi Agentliyi həmçinin bu il sərgiyə dəstək göstərib.

Ənənəvi olaraq, “WorldFood Azerbaijan” sərgisi eyni platformada bir neçə tematik ekspozisiyanı nümayiş etdirir: qida sənayesi (“WorldFood”), içkilər (“WorldDrink”) və texnologiyalar (“WorldFoodTech”). “WorldFood” bölməsində süd və qənnadı məmulatları, konservləşdirilmiş məhsullar, baqqaliyyə, inqrediyent istehsalçıları, eləcə də meyvə və tərəvəz ixracatçıları xüsusən fəaldırlar. “WorldFoodTech” bölməsində soyutma, çörəkbişirmə avadanlıqları, ərzaq saxlama texnologiyaları və bir sıra digər məhsullar təqdim olunmuşdu. “WorldDrink” bölməsi geniş çeşidli içkilər və şirələrlə fərqləndi. Həmçinin sərgidə çay növləri və brendlərinə xüsusi diqqət göstərilmişdi. Belə ki, ardıcıl olaraq üçüncü il sərgidə Şri Lankanı təmsil edən çay istehsalçıları qrupuna rəhbərlik edən “Şri Lanka Ti Bord” Dövlət Çay Komitəsi seylon çayının müxtəlif buketlərini təqdim edir. Azərbaycan sərgidə müxtəlif yerli istehsalçıların geniş çeşidli yerli çay brendlərini təqdim edib.

“WorldFood Azerbaijan” sərgisi ilə eyni platformada Xəzər Beynəlxalq Qablaşdırma, Tara, Etiket və Poliqrafiya “Ipack Caspian 2018” sərgisi keçirilib. Ötən il ilə müqayisədə, bu il iştirakçıların tərkibi və təklif olunan məhsul çeşidi əhəmiyyətli dərəcədə artmışdır. Sərgi çərçivəsində Azərbaycan, İtaliya, Rusiya, Türkiyə və digər ölkələri təmsil edən eksponentlər iştirak edb.

## ƏLAVƏ TƏDBIRLƏR VƏ İŞGÜZAR PROQRAM

“WorldFood Azerbaijan” sərgisi başlamazdan əvvəl təşkilatçılar işgüzar səhər yeməyi təşkil ediblər. İşgüzar qəlyanaltının keçirilməsində məqsəd iştirakçılara sərginin imkanlarından səmərəli şəkildə istifadə baxımından kömək etməkdir. Təşkilatçılar tərəfindən xüsusi olaraq dəvət edilmiş kouç Fidan Əzimli (ALPHA COACHING and CONSULTING) tərəfindən aparılıb. Qəlyanaltı zamanı stendlərin təşkil olunmasının başlıca məsələləri müzakirə edilib, sərgilərdə uğurlu inkişaf formullarının təqdimatı keçirilib. Bələdçi sərgidə əlaqələr qurmaq üçün bütün resurslardan maksimum istifadə etməyin vacibliyini qeyd edib və təşkilatçıların sərgiyə qədər, sərgi zamanı və sərgidən sonra təklif etdikləri pulsuz resursları xatırladıb.

İlk dəfə təşkil olunan “yeni məhsullar vitrini” sərgidə təqdim edilən bütün yeni məhsullarla yaxından tanış olmağa imkanı yaratdılar. Tədbirin məqsədi iştirakçılara yeni məhsul və xidmətləri öyrənmək və kəşf etmək, yeni iş imkanlarını araşdırmaq, potensial müştərilər tapmaq və işgüzar təcrübələrini bölüşmək məqsədi ilə aparıcı yerli şirkətlərlə görüşmək üçün əlavə imkanlar təqdim etmək idi. 20-dən çox şirkət özlərinin yeni məhsul və xidmətlərini təqdim etmək və gələcək əməkdaşlıq baxımından peşəkar auditoriyanın diqqətini daha da artırmaq üçün əlavə imkanlardan faydalanıb. Məsələn, “Astara Çay” şirkəti birbaşa sərgidə tamamilə yeni çay buketini təqdim etmişdi.

Əlaqə: Şövkət Həsənova
Tel.: +994 12 404 10 50; Faks: +994 12 404 1001;
E-poçt: prassistant@iteca.az; Veb-sayt: www.worldfood.az

Builki sərgi dolğun işgüzar proqramları ilə fərqlənib. Müxtəlif seminar və “B2B” formatlı görüşlər keçirilibdir. Bu görüşlərdə xarici və yerli istehsalçılar və distribütorlar və pərakəndə satış şəbəkələrinin nümayəndələri iştirak ediblər.

Sərgi çərçivəsində ən mühüm tədbirlərdən biri 18 may tarixində “Boulevard” otelində keçirilən 1-ci Bakı Beynəlxalq “Qida Təhlükəsizliyi” konfransı olub. Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi, Avropa İttifaqı və Dünya Bankının Azərbaycandakı nümayəndəliklərinin birgə təşkil etdiyi konfransda bu mövzuda ən aktual məsələlərə toxunulub. Konfrans çərçivəsində Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin sədri Qoşqar Təhməzlı və həm yerli, həm də xarici sənaye strukturlarının digər nümayəndələri çıxış ediblər.

Təşkilatçılar hər zaman sərgilərdə “start-up”ların iştirakını alqışlayır və yaxından dəstəkləyir. Bu il “start-up”lar ilk dəfə olaraq “WorldFood Azerbaijan” sərgisində də öz layihələrini nümayiş etdiriblər. Belə ki, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti Bakı Ekspo Mərkəzinin foyesindəki “Garden X” və “Ağıllı istixana” “start-up”larını təqdim ediblər. Debütantlar yeni layihələrin biznes üçün bütün faydaları barədə məmnuniyyətlə məlumat veriblər. Daha bir “start-up” – “Tasty Baku” şirkəti isə sərgi mərkəzinin foyesində korporativ hədiyyələr yaratmaq ideyası üzrə “master-klass” (“ustad dərsi”) təşkil ediblər.

Ənənəvi olaraq, təşkilatçılar sərgidəki fəaliyyətə yaradıcı şəkildə yanaşan və öz ekspozisiyaları, eləcə də fəal işi ilə seçilən sponsor, tərəfdaş və iştirakçıları fəxri sertifikatlarla təltif etdilər. Beləliklə, aşağıdakı nominasiyalar üzrə fəxri sertifikatlara bu şirkətlər layiq görüldü:

“Ən yaxşı korporativ üslub” – METAK
“Ən yaxşı stend dizaynı” – BETA FOOD IND AND TRADE INC
“Ən yaxşı təqdimat” – FOOD SAFETY AGENCY
“Ən yaxşı standart quraşdırma” – CEYLON TEA LAND PVT., LTD
“Ziyarətçilərlə ən fəal iş” – AZ-GRANATA LLC
“Ən çox ziyarət olunan stend” – ASTARACHAY LLC
“Ən cəlb edici stend”- CAN-PA LLC
“Ən yaxşı debüt” – ABAD
“Ən yaxşı məhsul təqdimatı” GILAN FMCG
“Ən yaxşı ölkə təqdimatı” – REPUBLIC OF BELARUS
“Ən orijinal stend” – GOYGOL WINE PLANT OJSC
“Ən yaxşı şirkət təqdimatı” – KRCPACK AMBALAJ SANAYI TIC. A.S.
“Ən mənzərəli stend” – PREMIER’S TEA LIMITED
“Ən dadlı stend” – BALKHOORMA

UFI (Ümumdünya Sərgi Sənayesi Assosiasiyası) beynəlxalq sərgi icmasının məlumatlarına əsasən sərgilərin ziyarət etmə sayı 8207 təşkil edib. "UFI" tərəfindən təsdiqlənmiş nişanı sərgilərin bütün beynəlxalq standartlarına uyğun olduğunu sübut edir.

Təşkilatçılar sərgilər çərçivəsində “Çünki biz qayğı göstəririk” adlı layihəni davam etdirir və bu dəfə sənətkarlar sərgilərin mövzunu əks etdirən əl işləri hazırlayıblar. Bütün bu məhsullar arasında zərgərlik məmulatları və aksessuarları, təbii sabun və üzvi kosmetika, çantalar, aksessuar və interyer kompozisiyaları,

zehni inkişaf etdirən kitablar, planşetlər və bir sıra digər məhsullar yer alıb. Həmçinin mərkəzin foyesində "Sandıqça" brendinin əl işi olan unikal məhsulları ilə tanış olmaq mümkün idi. Bu brendin hər məhsulu (aksessuarlar, şərflər, səbətlər və s. məhsullar) Azərbaycanın mədəni irsini əks etdirib. Uşaqlar üçün əyləncə zonası Bakı Ekspo Mərkəzinin foyesində yerləşmişdi və burada "Bagcam.az" şəbəkəsinin peşəkar müəllim və tərbiyəçiləri uşaqları maarifləndirici oyunlara, habelə faydalı və əyləncəli tədbirlərə cəlb edirdi.

2019-cu ildə sərgi 15-17 may ayının tarixlərində Bakı Ekspo Mərkəzində keçiriləcək.
#WorldFoodAzerbaijan #ItecaCaspian #BakuExhibitions

## *Rəylər*

*Marina Nesterenko, "Minsk Kristall" şirkətlər qrupunun xarici iqtisadi fəaliyyət idarəsinin direktorunun müavini*

"Bizim üçün "WorldFood Azerbaijan 2018" sərgisində iştirak etmək böyük əhəmiyyət kəsb edir, çünki bu nəhəng beynəlxalq tədbirdir. Burada məhsullarımızın çoxunu təqdim etmək, danışıqlar aparmaq və tərəfdaşlar tapmaq imkanı əldə etmişik".

*Jha Sanjeev Kumar, Marketinq Direktoru (MDB) Premier's Tea Limited*

"Şirkət bu sərgidə dördüncü ildir ki iştirak edir və ziyarətçilər məhsullarımıza daha çox maraq göstərirlər. Əminliklə deyə bilərəm ki, 2019-cu ildə keçirilən sərgidə iştirak etmək artıq bizim planımızdadı".

*Kıvanç Kuran, "Benoplast" şirkətinin ixrac satışları bölməsinin baş meneceri*

"Azərbaycan bazarının potensialını qiymətləndirərək, əvvəlki illərdə olduğu kimi, "World Food" sərgisində məmnuniyyətlə iştirak edirik. Biz artıq bir sıra işgüzar görüşlər keçirmiş, yerli bazarda biznesin daha da inkişaf etdirilməsi üzrə planlar hazırlamışıq".